Zəfər tarixinin xronikası : 2 noyabr 2021-ci il // Xalq qəzeti. - 2021. - 2 noyabr. - № 237. - S. 10.

Həmin gün:
– Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib.
Qəbulda müharibənin ilk günlərindən Türkiyənin və digər qardaş, dost ölkələrin Azərbaycana dəstəyini yüksək qiymətləndirən dövlətimizin başçısı deyib: “Bildiyiniz kimi, Türkiyə Respublikasının Prezidenti, mənim əziz qardaşım bizə ilk dəstək verdi, çox əhəmiyyətli bəyanatlar verdi. Demişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Ondan sonra digər dost, qardaş ölkələrin dövlət və hökumət başçıları – Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçıları bizə dəstək göstərdilər. Şadam ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bizə dəstək göstərmişdir və Şuranın çox önəmli bəyanatı olmuşdur. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin təzahürüdür”.;
– Prezident İlham Əliyev Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.;
– Prezident İlham Əliyev özünün “Twitter” hesabında bildirib: “Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşa Bulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”;
– Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” səhifəsində yazıb: “Xarici döyüşçülərin və muzdluların Ermənistan silahlı qüvvələri sıralarında olması “Reuters” agentliyinin reportajında təsdiqlənib. Biz dəfələrlə bildirmişik ki, Livandan və Suriyadan olan muzdlular, eləcə də PKK terrorçuları Ermənistandadırlar”.
Müdafiə Nazirliyinin məlumatı
Noyabrın 1-i gün ərzində və 2-ə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən, artilleriya və raketlərdən atəşə tutub.
Döyüş əməliyyatları əsasən cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.
Müdafiə olunan düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənmək üzrədir. Avtomobil və digər hərbi texnika üçün ehtiyat hissələri çatışmır.
Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası sıradan çıxarılıb. Tərtər rayonunun Çardaqlı kəndində (keçmiş Ağdərə rayonunun Maqavuz kəndi) yerləşdirilmiş düşmənin “KUB” zenit-raket kompleksi dəqiq atəşlə məhv edilib.

Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam və Ağcabədi rayonlarının kəndlərini artilleriya atəşinə tutub.
Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Azərbaycanın Qazax, Tovuz və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə tutulub.
Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər rayonunun Şıxarx qəsəbəsi, Qəzyan və Qapanlı kəndləri, Goranboy rayonunun Yenikənd kəndi intensiv artilleriya atəşinə tutulub.
***
Ermənistanın silahlı qüvvələri Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində geri çəkildikcə əraziləri minalayaraq növbəti təxribat əməllərinə yol verir, artıq yeni metodlardan istifadə edib dinc sakinlərimizə qarşı cinayət əməllərini davam etdirir.
Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, noyabrın 2-də partlamamış silah-sursatın axtarışı ilə bağlı Cəbrayıl rayonunun Mehdili kəndinə ezam olunmuş Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əməkdaşı Zeynalov Telman Bəbir oğlu minaya düşməsi nəticəsində "sol ayağın topuqdan aşağı ətrafının travmatik amputasiyası" xəsarəti alıb. Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.
***
Baş Prokurorluğun Mətbuat xidmətindən verilən digər məlumata görə, Baş Prokurorluğun İstintaq İdarəsinin qərarı əsasında Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilib ki, işğal olunmuş, lakin ordumuzun uğurlu əməliyyatları nəticəsində son günlərdə düşməndən təmizlənən Zəngilan rayonunun Vejnəli kəndində əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti göstərən İsveçrənin "Base Metals" Qapalı Səhmdar Cəmiyyəti 2009-2017-ci illər ərzində cəmi 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə edib.
Qeyd edilən cinayət faktları ilə əlaqədar İsveçrə Konfederasiyasının özəl şirkətinin nümayəndələri Vartan Sirmakes və Valeriy Mejlumyan, habelə "Base Metals" QSC-nin icraçı direktoru Artur Mkrtumyan Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, məhkəmənin müvafiq qərarları ilə qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən barələrində beynəlxalq axtarış elan edilib.
Həmçinin cinayət işi üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri istintaq hərəkətlərinin icrası məqsədilə İsveçrə Konfederasiyasının səlahiyyətli dövlət orqanlarına beynəlxalq hüquqi yardımın göstərilməsi haqqında vəsatətlə müraciət olunub.
***
Vətən müharibəsində Azərbaycanın haqlı mövqeyi beynəlxalq KİV-də işıqlandırılır:
– "Reuters": Vətən həsrəti çəkən Qarabağın azərbaycanlı köçkünləri tezliklə öz ata-baba torpaqlarına qayıtmaq arzusundadırlar;
– İtaliyanın "la Repubblica" qəzeti: Azərbaycanın hərbi uğurları göz önündədir;
– nüfuzlu ərəb kütləvi informasiya vasitələrində Prezident İlham Əliyevin son bəyanatları yayılıb;

– Efiopiyanın “Reporter” qəzetində “Azərbaycan tarixi ədaləti bərpa edir” adlı məqalə dərc edilib;
– Almaniyanın “ARD” televiziya kanalı Dağlıq Qarabağ haqqında reportaj yayımlayıb;
– Türkiyə mediası: Ermənistan cəbhədəki məğlubiyyətinin əvəzini dinc əhalidən çıxmağa çalışır.

***

“Fəxr edirik ki, Sizin kimi xalqını, Vətənini sevən və qoruyan Ali Baş Komandanımız, dünyaya öz sözünü deyən Prezidentimiz var”.

Azərbaycan Ordusunun uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyənin vətəndaşlarında böyük qürur və sevinc hissləri yaradıb. Onlar dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda bu hissləri ifadə edirlər.